# Şairlər vətəni bizim bu yerdə...



**Respublikamızda qabaqcıl təcrübələri ilə seçilən kifayət qədər mədəni-maarif müəssisələri fəaliyyət göstərir. Bu mədəniyyət ocaqları dünyada müxtəlif mənəvi-psixoloji problemlərin tüğyan etdiyi bir vaxtda xalqların mənəvi aləminin, adət və ənənələrinin qorunub saxlanılması baxımından böyük əhəmiyyətə malikdir.**

Belə qabaqcıl mədəniyyət ocaqlarından biri də Salyan Rayon Mədəniyyət və Turizm Şöbəsinin tabeliyindəki fəaliyyət göstərən Əfqan Məlikov adına Kürqaraqaşlı kənd mədəniyyət evidir. Burada görülən işlərə nəzər salmaq üçün, əvvəlcə foyedə təşkil edilmiş fotostendlərə, xüsusi guşələrə baxmaq lazımdır.

Mədəniyyət evində səliqə ilə yaradılmış bu guşələr göz oxşayırdı. Mədəniyyət evinin foyesində həmçinin Azərbaycan xalqının igid oğullarının, yazıçılarının, incəsənət və mədəniyyət xadimlərinin portretləri asılmış, onlara məxsus kitab sərgiləri təşkil olunmuşdur. Burada həmçinin Azərbaycan dövlətinin atributları əks olunmuş, dövlət himnimizin sözlərini yazmış Əhməd Cavadın və musiqisini bəstələmiş dahi Üzeyir Hacıbəyovun portretləri öz əksini tapmışdır.

Mədəniyyət evinin giriş hissəsində təşkil olunmuş bu gözəl abu-hava işçilərin müşayətilə müəssisənin tamaşa zalında davam etdi. Açığını deyim ki, mədəniyyət evi keçmiş İttifaq dövləti dövründə inşa edilməsinə baxmayaraq bina mədəniyyət evinin rəhbərliyi tərəfindən çox məsuliyyətlə qorunub saxlanılmışdır.

Tamaşa zalının ikinci mərtəbəsində qonaqlar üçün nəzərdə tutulmuş loja var idi. Səhnənin kulis hissəsində qırmızı məxmər pərdələrdən istifadə edilmişdi. Gəlin etiraf edək ki, belə mədəniyyət evi rəhbərliyinin xüsusi bacarığı, qabiliyyəti olmalıdır. Məhz haqqında danışdığım mədəniyyət işçisi də belə insanlardandır. Kürqaraqaşlı kənd mədəniyyət evinə Aytən Vəliyeva rəhbərlik edir. Biz kollektiv üzvləri ilə iş gününün qızğın vaxtında söhbətə başladıq. Söhbətimiz kənd mədəniyyət evində həyata keçirilmiş mədəni kütləvi tədbirlərlə davam etdi.

Aytən xanım söylədi ki, tərtib etdiyimiz illik iş planı Mədəniyyət və Turizm şöbəsi tərəfindən təsdiq edildikdən sonra bu tədbirlər planı əsasında işini təşkil edən kollektivimiz ilboyu əhali arasında mədəni-maarif işinin təbliği ilə məşğul olur. Mən müəssisənin aylıq iş planları ilə tanış olarkən, burada Aytən xanımın dediklərinin şahidi oldum.

- Biz mədəni-maarif işçiləri də çalışırıq ki, qeyd etdiyimiz həmin müsbət iş prinsiplərini günün tələbləri səviyyəsində həyata keçirərək əhaliyə müəyyən qədər mədəni xidmət edə bilək. Bu işlərin həyata keçirilməsində bizim kollektivimiz birlikdə səy göstərir.

Bədii rəhbər Ədibə Qasımova, metodist Hikmət Ağabəyov, mədəni təşkilatçı Səriyyə Məlikova, mədəniyyət evində keçirilən ədəbi-bədii tədbirlərdə kollektivə yaxından köməklik edən Ərzuman Əsgərov və əlbəttə, mədəniyyət evinin səliqəli, təmiz saxlanması üçün çalışan texniki işçimiz Güldanə Əmənova öz işinin öhdəsindən layiqincə gəlir.

Mən bu yazıma təsadüfən dahi şairimiz Səməd Vurğunun məşhur misrasını başlıq seçməmişəm. Görkəmli şair Əliağa Kürçaylının bu kənddə dünyaya göz açdığını bildiyim üçün burada onun haqqında bir neçə söz yazmamaq, mənim üçün böyük qəbahət olardı.

Əliağa Kürçaylı 1928-ci ildə Salyan rayonunun Kürdqaraqaşlı kəndində anadan olmuşdur. O, 1944-cü ildə orta təhsilini yarımçıq qoyaraq dəmir yolunda fəhlə işləməyə başlamışdır. Gənc Əliağa fəhlə işləməsinə baxmayaraq lirik şeirlər yazırdı.

Sonralar o, Bakıda axşam məktəbində təhsilini bitirdikdən sonra Azərbaycan Dövlət Universitetinin filologiya fakültəsinə daxil olmuş, 1954-cü ildə həmin ali məktəbi bitirmişdir. 1957-ci ildə Moskvada Qorki adına Ədəbiyyat İnstitutunu bitirdikdən sonra o, "Kommunist" qəzetində ədəbi işçi, "Azərbaycan gəncləri" qəzetində şöbə müdiri, "Literaturnıy Azerbaydjan" və "Azərbaycan" jurnallarında məsul katib, Yazıçılar İttifaqında nəşriyyat şöbəsinin müdiri, "Yazıçı" nəşriyyatında baş redaktor vəzifələrində çalışmışdır.

1978-ci ildə "Bütövlük" adlı son kitabına görə Azərbaycan Dövlət mükafatına layiq görülmüşdür. Əliağa Kürçaylı 1980-ci ildə vəfat etmişdir. Kürqaraqaşlı kəndinin hər bir sakini Əliağa Kürçaylını məhəbbət və sevgi şairini fəxrlə yad edirlər. Mən sözlərimi-mərhum şairin "Həsrətin" adlı şeiri ilə bitirmək istəyirəm:

***Getdin, həsrətinə tapşırdın məni,***  
***Tək qala bilməzdim qəmlə, kədərlə,***  
***Həsrətin danışdı olub keçəni,***  
***Məni ovundurdu xatirələrlə.***

***Sənli günlərimi anıb danışdı,***  
***Canlandı qarşımda surətin sənin.***  
***Mənim əvəzimə yanıb danışdı,***  
***Səndən vəfalıymış həsrətin sənin.***

***Həsrətin sinəmdə illəndi qaldı,***  
***Mən ondan alıram sənin ətrini.***  
***Həsrətin göllləndi qaldı gözümdə,***  
***Yaman istəyirmiş xətrimi mənim.***

***Onundur, ya sənin, sinəmdəki dağ,***  
***Bəhsə giribsiniz dağ çəkməkdə siz.***  
***Həsrətin yaxındır, sən özün uzaq,***  
***Gərək yerinizi dəyişəydiniz.***


● M.ƏBİLOV,  
*"Mədəni-maarif"*  
*jurnalının zona müxbiri*


P.S. Bu gün Muğanın əyalət kəndlərinin birində öz dəsti-xətti ilə seçilən bir mədəniyyət ocağı fəaliyyət göstərir. Bu kənd mədəniyyət evi özünün tarixi keçmişinə sadiq qalan mədəni-maarif işçiləri ilə fəxr edir. Onlar daim bu el-obaya təşrif buyurmuş xoşməramlı insanlara isti münasibət bəsləyirlər. Bərəkətli Muğan torpağının qızmar iqlimi kimi...

**Redaksiyadan: 2009-cu ilin yekunlarına görə kollektiv Rayon Mədəniyyət və Turizm Şöbəsi tərəfindən Fəxri Fərmana layiq görülmüşdür.**

